# HACIQABUL

№ 19
(699)

22 oktyabr
2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# 9 ayın göstəriciləri uğurlu olmuşdur

***2018-ci ilin 9 ayının yekunları müzakirə olundu, görülən işlərdən danışıldı, qarşıda duran vəzifələr müəyyənləşdirildi***





***Oktyabr ayının 17-də rayon İcra Hakimiyyəti Başçısı Aparatında 2018-ci ilin 9 ayı ərzində Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş şura iclası keçirildi.***

***Şura iclasında RİHB-nın şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilat rəhbərləri, bələdiyyə sədrləri, sahibkarlar iştirak edirdi.***

Tədbiri rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov açaraq qeyd etdi ki,

oktyabr ayının 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı 2018-ci ilin doqquz ayının yekunlarının müsbət olduğunu, ilin əvvəlindən qarşıya qoyulmuş bütün vəzifələrin uğurla və vaxtında icra edildiyini, Azərbaycanın 2018-ci ildə də öz dinamik inkişafını təmin etdiyini və ölkəmizin əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını ifadə edib.

Dövlət başçısı bildirib ki, 2018-ci ilin 9 ayı ərzində ümumi daxili məhsul 0,8 faiz artmışdır. Ölkə iqtisadiyyatına 9,0 milyard dollar sərmayə qoyulmuşdur ki, bu vəsaitin də 5,6 milyard dolları qeyri-neft sektoruna payına düşür. 9 ayda qeyri-neft sektoru 1,0 % artmışdır. Sənaye istehsalı 2,0 %, qeyri-neft sənayesi 10,8 %, kənd təsərrüfatı 4,3 % artmışdır.

Xarici ticarət dövriyyəsi 37,0 faiz, ixrac da təxminən bir o qədər artmışdır, o cümlədən qeyri-neft ixracı 14 faiz artmışdır. Valyuta ehtiyatlarımız 45,0 milyard dollara çatmışdır.

2018-ci ilin doqquz ayı ərzində 85 min yeni iş yeri yaradılmışdır. Əhalinin gəlirləri təxminən 9,5 % artmış, inflyasiya isə cəmi 2,6 % olmuşdur.

May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihəsi. Dördüncü layihə - TAP qrafik üzrə icra edilir.

Prezident cənab İlham Əliyev yekun nitqində qeyri-neft sektorunun inkişafı, sənaye parklarının yaradılması, kənd təsərrüfatının inkişafı, iri fermer təsərrüfatlarının yaradılması, pambıqçılığın, üzümçülüyün, tərəvəzçiliyin, meyvəçiliyin, baramaçılığın inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, aqroparkların yaradılmasının əhəmiyyətini vurğulayaraq, yeni "Asan xidmət" mərkəzlərinin açılması, özünəməşğulluq proqramlarının icrası, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə, inşaat sektoru, qazlaşdırma, elektrik və su təchizatı, məişət tullantılarının daşınması, meliorativ tədbirlərin görülməsi, yeni yolların salınması, ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verib.

Möhtərəm Prezidentimizin 27 fevral 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramında qarşıya qoyulan məqsədlərin reallaşması, nəzərdə tutulmuş layihələrin icra edilməsi nəticəsində iqtisadi rayonlar yeni inkişaf mərhələsinə qədəm qoyur. Ötən müddət ərzində respublikamızın digər rayonları kimi Hacıqabulda da mühüm işlər görülmüşdür.

Sonra 2018-ci ilin 9 ayında Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunları barədə RİHB-nın məruzəsi dinlənildi.

Məruzədə qeyd edildi ki, 2018-ci ilin doqquz ayında rayon üzrə ümumi məhsul buraxılışının həcmi 234,2 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 9,6 milyon manat və ya 4,3 % çoxdur. Məhsul buraxılışı həcmində qeyri-dövlət sektorunun payı 79,9 % təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 16,1 % çoxdur. Bu ilin doqquz ayı ərzində kənd təsərrüfatı məhsulunun həcmi 2.580,2 min manat artaraq 100.877,6 min manat, sənayedə məhsul buraxılışının həcmi 6.715,6 min manat artaraq 19.137,8 min manat, ticarətdə məhsul buraxılışının həcmi 3.539,9 min manat artaraq 60.571,6 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 2,6 %, sənayedə 54,1 %, ticarətdə 6,2 % artım müşahidə edilmişdir.

Hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 10.182,0 min manat və ya 5,9 % artaraq 183.302,0 min manat, iaşə dövriyyəsi 167,0 min manat və ya 5,7 % artaraq 3.072,0 min manat, əhaliyə göstərilmiş pullu xidmətlərin həcmi 1.336 min manat və ya 5,8 % artaraq 24.522,0 min manat, məişət xidmətlərinin həcmi 246,0 min manat və 5,2 % artaraq 4.950,0 min manat, yük daşınmalarının həcmi 5,0 min ton və ya 2,4 % artaraq 213,0 min ton, sərnişin daşınmalarının həcmi 81 min nəfər və ya 2,0 % artaraq 4.131 min nəfər, rabitə xidmətlərinin həcmi 49,5 min manat və ya 10,7 % artaraq 513,7 min manat olmuşdur.

2018-ci ilin 9 ayı ərzində Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş əsas kapitala investisiyaların ümumi həcmi 52.095,0 min manat, istifadəyə verilmiş əsas fondlar 2.183,6 min manat olmuşdur. Ümumi mənzil fondu 16,6 min kv.metr və 1,4 % artaraq 1.179,8 min kv.metr olmuşdur.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının çoxsahəli inkişaf etdirilməsinə, bu sahədə qazanılan uğurları ilbəil artırmağa zəmin yaradır.

Rayonda bu ilin məhsulu üçün 43011,0 hektar sahədə taxıl əkilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 28602 hektar çoxdur. Bu sahələrin 31848,0 hektarını buğda, 11163,0 hektarını isə arpa əkini təşkil etmişdir. 43011,0 hektar taxıl sahəsindən 76005,6 ton məhsul əldə edilmişdir. İstehsal olunmuş taxılın 42343,6 tonunu buğda, 33662,0 tonunu isə arpa təşkil edir. Məhsuldarlıq buğda üzrə 13,3, arpa bitkisi üzrə isə 30,15 sentner olmuşdur.

2018-ci ilin məhsulu üçün 458 hektar sahədə tərəvəz, 830 hektar sahədə bostan, 45 hektar sahədə kartof, 1120,0 hektar sahədə qarğıdalı, 40 hektar sahədə günəbaxan, 1300,0 hektar sahədə pambıq, 117 hektar sahədə şəkər çuğunduru, 20,0 hektar sahədə soya, 2448,0 hektar sahədə yem bitkiləri olmaqla cəmi 6457,0 hektar sahədə yazlıq əkin aparılmışdır.

2018-ci ilin doqquz ayı ərzində 5714,0 ton tərəvəz, 11378 ton bostan, 495,0 ton kartof, 347,0 ton qarğıdalı, 196,9 ton pambıq, 6520,0 ton şəkər çuğunduru, 40,9 ton soya, 8716 ton meyvə, 268 ton üzüm istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 34,0 ton kartof, 40 ton günəbaxan, 40,9 ton soya məhsulu, 7 ton üzüm istehsalı çox olmuşdur.

Rayonda heyvandarlıq məhsulları istehsalında da artım qeydə alınmışdır. Hesabat dövründə süd istehsalı 616 ton və ya 5,0 % artaraq 13008,0 tona, yun istehsalı 1 ton artaraq 229 tona çatmışdır. Hesabat dövründə yumurta istehsalı 216.613 min ədəd olmuşdur.

Rayon üzrə iribuynuzlu heyvanların baş sayı 490 baş və ya 1,3 % artaraq 39125 başa, qoyun və keçilərin sayı isə 898 baş və ya 0,7 % artaraq 137523 başa çatmışdır. Hesabat dövründə diri çəkidə 5989,0 ton ət istehsal edilmişdir.

Quşların baş sayı 384,9 min baş və ya 11,3 % artaraq 3.799 min baş olmuşdur.

"Aqrolizinq" vasitəsilə hesabat dövründə kənd təsərrüfatı əkinçilərinə 1363,9 ton müxtəlif növ mineral gübrələrin və ziyanvericilərə qarşı 1141,6 litr kimyəvi maddənin 70 % güzəştlə satışı həyata keçirilmişdir.

Əkinlərin su təminatının yaxşılaşması üçün rayon Suvarma Sistemləri idarəsi 20743 ha suvarılan torpaqlarında kənd təsərrüfatı əkinlərini və meşə zolağını suvarma suyu ilə təmin edir. Əkinlərin su təminatının yaxşılaşması üçün 2018-ci ilin 9 ayında 206,0 km magistral və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının daha da inkişaf etdirilməsi məqsədilə verdiyi tapşırıq və tövsiyələrin, qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi, pambıq istehsalının artırılması, baramaçılığın inkişafı, yeni aqroparkların salınması istiqamətində rayonumuzda bir sıra işlər görülmüş və bu işlər hal-hazırda da davam etdirilməkdədir.

Cari ildə rayonumuzda 1300,0 ha sahədə pambıq əkilmişdir ki, bu da keçən ilin pambıq əkinindən 96,1 ha və ya 10,7 % çoxdur.

***(Davamı 2-ci səhifədə)***

# Milli sərvətimiz - Müstəqilliyimiz!





***Azərbaycan xalqı artıq 27 ildir ki, oktyabr ayının 18-ni müstəqillik günü kimi qeyd edir, bu tarixi günü bayram əhval-ruhiyyəsi ilə qarşılayır.***

***İstiqlaliyyəıt günümüzün ölkəmizdə hər il təntənəli şəkildə qeyd edilməsi Azərbaycan dövlət müstəqilliyinin möhkəm təmələr üzərində qurulduğunu və əbədi olduğunu bir daha sübut edir. Müstəqillik günü rayonumuzda da təntənə ilə qeyd olundu.***

Bayram tədbiri ulu öndər Heydər Əliyevin abidəsinin ziyarəti ilə başladı. Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri ümummilli liderin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər.

Tədbir rayon Heydər Əliyev Mərkəzində davam etdirildi. Dövlət müstəqilliyinin 27-ci ildönümünə həsr olunmuş elmi-praktik konfransı RİH Başçısı Əhməd Muxtarov açaraq xalqımızı bayram münasibəti ilə təbrik etdi. Dövlət müstəqilliyimizin bərpasının 27-ci ildönümü ilə əlaqədar məruzə ilə çıxış edən RİH Başçısı qeyd etdi ki, 1991-ci ilin 18 oktyabrında Azərbaycan öz dövlət müstəqilliyini qeyd edərək yeni tarixi mərhələyə qədəm qoymuşdur. Xalqımızın tarixi nailiyyəti olan milli müstəqilliyimizin qorunub saxlanılmasında, əldə etdiyimiz bugünkü uğurlarımızın əldə olunmasında böyük siyasi xadim, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.

Natiq qeyd etdi ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı 1991-ci ilin 18 oktyabrında qəbul edilsə də dövlət müstəqilliyimizin etibarlı əsasları 1993-cü ildən-Heydər Əliyevin bilavasitə rəhbərliyi altında, onun qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində mümkün olmuşdur.

Bu gün hər bir azərbaycanlı azad ölkənin vətəndaşı olması ilə fəxr edir. Bu azadlığımızın, müstəqilliyimizin əldə olunmasında ən böyük zəhməti isə məhz ulu öndər Heydər Əliyev çəkib. Müstəqilliyimizin memarının siyasi müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş həmrəyliyi bərqərar oldu, əmin-amanlıq və sabitlik bərpa edildi.

RİH Başçısı çıxışında vurğuladı ki, çox sevindirici haldır ki, ulu öndərimizin ideyaları bu gün yaşayır, onun siyasi kursu Prezident İlham Əliyev tərəfindən yeni məzmun və keyfiyyətlə davam etdirilir. Müstəqil respublikamız gündən-günə inkişaf və tərəqqi edir, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilir. Azərbaycanımızın kiçik bir parçası olan Hacıqabulda da bu inkişaf və tərəqqi nəzərə çarpır.

Tədbirdə YAP rayon təşkilatının sədri Hafiz Bəşirov "Dövlət müstəqilliyimizin qarantı" mövzusunda, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov "Müstəqil Azərbaycanın gənclər siyasəti" mövzusunda, rayon Aqrar İnkişaf Mərkəzinin rəisi İkram Əliyev "Müstəqillik illərində aqrar sahədə inkişaf", N saylı Hərbi hissə komandirinin təlim-tərbiyə işləri üzrə müavini, polkovnik-leytenant Nəriman İsayev "Dövlət müstəqilliyinin qorunub saxlanılmasında silahlı qüvvələrin rolu", Talış kənd tam orta məktəbinin tarix müəllimi Töhfə Hacıyeva "Müstəqillik illərində Azərbaycanda təhsilin inkişafı" mövzularında çıxış etdilər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov tədbirə yekun vuraraq bir daha xalqımızı, hacıqabulluları müstəqillik bayramı münasibəti ilə təbrik etdi, müstəqillik həqiqətən də böyük tarixi nailiyyətdir, bizim əsas vəzifəmiz bu müstəqilliyi qoruyub saxlamaq və onu daha da möhkəmləndirməkdir-dedi.

***"Hacıqabul"***

# 9 ayın göstəriciləri uğurlu olmuşdur

*(Əvvəli 1-ci səhifədə)*

Pambıq əkini ilə bağlı istehsalçılar ilə "Hacıqabul Kənd Təsərrüfatı MMC" arasında xam pambığın istehsalı və alqı-satqısına dair müqavilələr bağlanmışdır.

Məqsədimiz əkilmiş sahələrdən 2600 tondan çox pambıq əldə etməkdir.

Rayonda baramaçılığın inkişafı da mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Bu məqsədlə ötən illərdə rayon ərazisində 38.000 ədəd tut (çəkil) ağacının əkilməsi həyata keçirilmiş və cari ildə də bu iş davam etdiriləcəkdir. Əkilmiş tut tinglərinə aqrotexniki qaydada qulluq edilir, becərilir və vaxtında suvarılır.

Hesabat dövründə rayonda 30 kümçü tərəfindən 1924,25 kq barama istehsal edilmişdir.

Rayonda aqroparkların yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Hacıqabul rayonunun Padar qəsəbəsi ərazisində "Azərsun" Holding tərəfindən 1625 hektar sahədə iri aqropark yaradılmışdır. Bu aqroparkda infrastruktur yaradılmış, 777 ha sahədə pivot sistemi, 75 ha sahədə damlama suvarma sistemi quraşdırılmış, texnikalar alınmış, ofis, anbar, işçilər üçün yeməkxana, texnikalar üçün qaraj tikilmişdir. Hesabat ilində 490,0 ha buğda sahəsindən 4761,45 ton, 791,0 ha arpa sahəsindən 1938,0 ton 117,0 ha şəkər çuğunduru sahəsindən 6520,0 ton məhsul əldə edilmişdir. 978,0 ha sahədə qarğıdalı, 20,0 ha sahədə soya əkilməsi həyata keçirilmişdir.

Aqroparkda illik istehsal gücü 20,000 ton süd olan 2000 başlıq heyvandarlıq (iri buynuzlu mal-qara) kompleksində son tamamlama işləri həyata keçirilir, hal-hazıra kimi 1200 baş cins iri buynuzlu mal qara gətirilmiş, mərhələlərlə heyvanların gətirilməsi davam etdirilir. Gətirilmiş heyvanlardan 244 baş buzov alınmışdır ki, onların da 125 başı erkək, 119 başı isə dişi cinslidir.

Hacıqabul rayonunun Meyniman kəndində 2000,0 ha torpaq sahəsi olan "Muğan Agro" MMC-yə məxsus aqroparkda infrastruktur yaradılmış, 2 ədəd mal damı, 1 ədəd yem anbarı, 4 ədəd qoyun damı, inzibati bina və digər yardımçı binalar tikilmişdir. Aqroparkın nəzdində 1560 baş qoyunu olan ferma fəaliyyət göstərir. Ötən ildə hər birinin sahəsi 2,0 ha olan 5 ədəd müasir tipli istilikxananın tikintisi başa çatdırılmışdır. Hesabat ilində 110,0 ha buğda sahəsindən 380 ton, 120 hektar arpa sahəsindən 285 ton, 174 ha yonca sahəsindən 2440 ton məhsul əldə edilmişdir. 20,0 ha sahədə soğan, 80,0 ha sahədə pambıq, 250 ha sahədə qarğıdalı əkilmiş, 57,0 ha sahədə meyvə bağı salınaraq meyvə bağlarının ümumi sahəsi 114,0 hektara çatdırılmışdır. Bundan əlavə illik istehsal gücü 5000 ton süd olan 700 başlıq heyvandarlıq (iri buynuzlu malqara) kompleksi yaradılmışdır. Hazırda təsərrüfatda "simmental" cinsli 264 baş inək, 221 baş buzov və 1 baş buğa vardır.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli Sərəncamına əsasən Hacıqabul rayonunda 20,0 hektar sahədə "Hacıqabul Sənaye Məhəlləsi" yaradılmış, onun fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə həvalə olunmuşdur.

"Hacıqabul Sənaye Məhəlləsi"nin 9 hektar sahəsində aparılan tikinti işləri başa çatmış, hazırda tamamlama və abadlaşdırma işləri aparılır.

Hacıqabullular möhtərəm Prezidentimiz İlham Əliyevin rayonumuza göstərdiyi diqqət və qayğıya özlərinin yüksək əmək və siyasi fəallığı ilə cavab verərək rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər həyata keçirəcəklər.

Məruzə ətrafında rayon Poçtamtının müdiri Ayət Nadirov, rayon Telekommunikasiya Qovşağının müdiri Asif Məmmədov, Hacıqabul Quşçuluq ASC-nin direktor müavini Sahib Aslanov, rayon Məşğulluq İdarəsinin müdiri Çingiz Həsənov, pambıq istehsalçısı Mənsur Cəfərov, şəhər bələdiyyəsinin sədri Firdövsi İbrahimov çıxış etdilər.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2018-ci ilin 9 ayında gördüyü işlər qənaətbəxş hesab olundu. Müvafiq qərar qəbul edildi.

***"Hacıqabul"***



# Şərəfli peşə sahibləri

## *5 oktyabr-Beynəlxalq Müəllimlər gününü rayonumuzun təhsil işçiləri təntənə ilə qeyd etdilər*

Tədbir başlamazdan öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayon Təhsil Şöbəsi və pedaqoji kollektivlərin nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə tər gül dəstələri düzdülər.

Tədbir rayon Heydər Əliyev Mərkəzində davam etdirildi.

Tədbiri rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov açaraq peşə bayramı münasibəti ilə təhsil işçilərini təbrik etdi. Ölkəmizdə müəllim əməyinə, təhsilə dövlət qayğısından danışdı. Qeyd etdi ki, hər birimizin cəmiyyətdə tutduğumuz mövqedə müəllimlərin hərarətli qəlbinin bir zərrəciyi var.

"Mən dünyada müəllimdən şərəfli ad tanımıram"-deyən ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir.

Son illər ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəblərin tikildiyini qeyd edən Ş.Məmmədov vurğuladı ki, indi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir. Sevindirici hal bir də odur ki, bu proses paytaxt Bakı ilə bərabər bölgələrimizi də əhatə edir. Dövlətin diqqət və qayğısı olan məktəblər sırasında rayonumuzun da təhsil ocaqları var. Rayonumuzdakı təhsil ocaqlarının demək olar ki, 90 faizi yeni tikilmiş və təmir olunmuş, maddi-texniki bazası gücləndirilmiş məktəblərdir. Bütün bu görülən işlər Prezident İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər isə yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirmişdir.

Ş.Məmmədov bir daha peşə bayramı münasibəti ilə təhsil işçilərini təbrik edərək onlara işlərində müvəffəqiyyətlər arzuladı.

Tədbirdə çıxış edən müəllimlər işlədikləri pedaqoji kollektivlərdə görülən işlərdən, müəllim adına göstərilən yüksək etimaddan, işlədikləri dövr ərzində qazandıqları uğurlardan söz açdılar.

Sonda rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov çıxış edərək rayonun təhsil işçilərini peşə bayramı münasibəti ilə təbrik etdi. Qeyd etdi ki, müəllim peşəsi bütün dövrlərdə ən şərəfli, ən dəyərli peşə hesab olunub və bu adı daşıyanlara həmişə böyük hörmət və ehtiram göstərilib.

İndi də məktəblərimizdə öz peşəsini ürəkdən sevən, yüksək peşəkarlığı ilə fərqlənən, cəmiyyətin onların qarşısında qoyduğu vəzifəni-yüksək əxlaqi keyfiyyətlərə malik nəsil yetişdirmək vəzifəsini şərəflə yerinə yetirən müəllimlər çoxdur. Ölkə Prezidenti İlham Əliyev hər zaman təhsilə, təhsil işçilərinə böyük önəm verib, onların əməyini qiymətləndirib.Prezidentin sərəncamı ilə peşə bayramları ərəfəsində bir qrup təhsil işçisinin dövlətin ali mükafatlarına layiq görülməsi buna əyani sübutdur.

Sonra RİH Başçısı işində fərqlənən təhsil işçilərinə dövlətin verdiyi ali mükafatları və qiymətli hədiyyələri təqdim etdi.

***"Hacıqabul"***

# Vətən qəhrəmanları ilə tanınır

***Vətənpərvərlik duyğusu insana lap uşaqlıqdan aşılanıb təlqin olunur. Öz vətənini, millətini sevməyən, bayrağını, himnini tanımayan şəxsin qəlbində vətənə, torpağa məhəbbət ola bilməz. Bu gözəl duyğunun baş qaldırması isə hələ kiçik yaşlarından başlayır.***



Bu günlərdə rayon Heydər Əliyev Mərkəzində torpaqlarımızın müdafiəsi zamanı igidlik göstərmiş, əlil olmuş veteranlarla görüş keçirildi. Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin təsis etdiyi xatirə medalları, diplomları onlara təqdim olundu.

Tədbirdən öncə veteranlar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər.

Tədbirdə iştirak edən rayon İcra Hakimiyyəti Başçısının müavini Zeynəb Yunuslu torpaqlarımızın müdafiəsində canından keçmiş igid oğullarımızın vətənpərvərliyindən, Qarabağ döyüşlərində, eləcə də son dəfə Aprel döyüşləri zamanı əlil və şəhid olmuş oğullarımızın mərdliyindən danışdı. Belə igidlərin bizim rayonda da olduğunu nəzərə çatdırdı. Gənclərimizin belə qəhrəman oğullardan örnək götürməsini vurğuladı, qeyd etdi ki, veteranlara, əlillərə, şəhid ailələrinə, onların problemlərinə hər zaman böyük diqqət və qayğı göstərilir, onların sosial problemlərinin həlli istiqamətində davamlı işlər görülür. Bu diqqət və qayğı ilə rayonumuzun müharibə veteranları da əhatə olunmuşdur. Onların keçdikləri şərəfli və mənalı həyat yolu gənc nəslin vətənə, torpağa məhəbbət hissini daha da artırır.

Tədbirdə iştirak edən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi sədrinin birinci müavini Kamil Şirinov çıxış edərək milli ordumuzun yaradılmasından, ordu sıralarında nizam-intizamın yüksək olmasından, gənclərimizdə vətənpərvərlik hissinin yüksək olmasından danışdı. Dövlətin veteranlara, şəhid ailələrinə, müharibə əlillərinə olan diqqət və qayğısından danışdı. Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin onlara daim diqqətini qeyd etdi və onlar üçün xatirə medalları təsis edildiyini vurğuladı.

Tədbirdə çıxış edən müharibə veteranlaı və əlilləri onlara göstərilən diqqət və qayğıya görə, dövlətimizə və dövlət başçımıza minnətdarlıqlarını bildirdilər.

Sonda Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin təsis etdiyi medallar və diplomlar torpaqlarımızın müdafiəsi zamanı əlil olmuş veteranlara təqdim olundu.Xatirə şəkilləri çəkildi.

***"Hacıqabul"***

# Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir



Şəhər 1 saylı tam orta məktəbdə rayon MKS-nin 2 saylı kitabxana filialı Heydər Əliyev Mərkəzi ilə birgə 18 oktyabr Dövlət Müstəqilliyi günü münasibəti ilə "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir" adlı dəyirmi masa keçirmişdir.

Tədbiri giriş sözü ilə 2 saylı kitabxananın müdiri Şəhla Salmanova açaraq kitabxanada olan müstəqillik tarixinmizdən bəhs edən "Müstəqillik yollarında" kitabı haqqında şagirdlərə məlumat verdi. Sonra rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı A.Mustafazadə geniş məruzə ilə çıxış etdi. Tədbirin sonunda şagirdlər vətənpərvərlik mövzusunda şeirlər səsləndirdilər.

***Aytən Mustafazadə,***
***rayon Heydər Əliyev Mərkəzinin bələdçisi***





# RİH Başçısının səyyar görüş-qəbulları davam edir

RİH Başçısı Əhməd Muxtarovun daha bir səyyar qəbulu rayonun Navahı kəndində, kənd İcra nümayəndəliyində, oktyabrın 19-da isə Hacıqabul şəhərinin İsmət Qayıbov və Həmidağa Səmədov küçələrinin sakinləri ilə rayon Aqrar İnkişaf Mərkəzində keçirildi.

Keçirilən qəbullarda sakinlərin sosial durumu, iş, məişət şəraiti ilə maraqlanmaq, onların üzləşdiyi bəzi problemləri yerindəcə həll etmək məqsədi ilə görüşə gəlmiş RİH Başçısı Əhməd Muxtarovu və rayonun təhsil, səhiyyə, mədəniyyət, xidmət idarələrinin rəhbərlərini qəbul iştirakçıları razılıqla qarşıladı.

RİH Başçısı qəbula gələnləri səmimi salamladıqdan sonra sakinlərin problemlərini, arzu və təkliflərini dinlədi.

Qəbula gələn sakinlər yenə də adəti üzrə yaşadıqları ərazinin sosial və məişət qayğılarının, problemlərinin möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının yorulmaz fəaliyyəti, doğma xalqına hədsiz məhəbbəti, uğurlu daxili və xarici siyasəti sayəsində artıq həllini tapdığından ürək dolusu danışdılar.

Bütün bu reallıqları, həyatlarında baş verən müsbət dəyişiklikləri yüksək dəyərləndirdikləri və ölkə başçısına ünvanladıqları səmimi sözlərə görə RİH Başçısı Əhməd Muxtarov sakinlərə minnətdarlıq hisslərini bildirdi və onları narahat edən çatışmamazlıqlarla maraqlanmışdır.

Bütün müraciət, problem və xahişləri dinlədikdən sonra RIH Başçısı həlli üçün aidiyyatı təşkilatlara tapşırıq və tövsiyyələrini verdi.

***"Hacıqabul"***

# Pambıq tarlaları bəyaz dona bürünüb



***Rayonumuzun kənd əməkçilərinin çəkdikləri zəhmət hədər getməyib. Göz işlədikcə uzanan pambıq sahələri başdan-başa ağ örpəyə bürünməklə əsil hünər meydanına çevrilib.***

Azərbaycan Prezidenti İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrdən olan pambıqçılığı inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyyələri Hacıqabulda da real nəticələrini verir. Dövlətin davamlı qayğısı torpaq mülkiyyətçilərinin pambıqçılığa marağını artırıb.

Meyniman kəndi rayonumuzun axarlı-baxarlı, barlı-bəhərli ərazilərindən biridir. Ana Kürün sahilində yerləşən, su sarıdan korluq çəkməyən, münbit torpağa malik Meynimanda kənd sakinləri keçmiş sovetlər dönəmində pambıqçılıqla məşğul olmuşlar. Kəndə səfərimiz də elə pambıqçılıdan yazı hazırlamaq, kənd sakinlərinin pambıqçılığa artan marağını öz gözlərimizlə görmək idi.

Budur, Meyniman kəndindəyik. Yolboyu pambıq tarlaları göz oxşayır. Günəşin zərrin şəfəqləri ağappaq dona bürünmüş sahələri sanki bir az da yaraşıqlı edib gözəlləşdirmişdir. Qabaqcıl icarədar Mansur Cəfərovun sahəsindəyik. Bu il 50 hektar sahədə bol pambıq yetişdirdiyini deyən icarədar sahələrdən



16 tondan çox pambığın yığılıb təhvil verildiyini bildirir. Əllə yığım ustaları Göyərçin Quliyevanın, Samirə Şirinovanın, Flora Cəfərovanın, Səbirə Nəhmədovanın, Bahar Abdullayevanın, Lətafət Hüseynovanın hər gün adambaşına 80 kq pambıq yığdıqlarını qeyd edir. Yığılmış məhsul Sabirabad rayonu Surra pambıqqəbulu məntəqəsinə təhvil verilir.

Meynimanda pambıq əkib becərən icarədarlar çoxdur.Vəli Ələkbərov və Cavid Vəliyev də bu il hər biri 25 hektar sahədə pambıq əkib becərmişlər. Hər iki icarədar məhsul yığımında bütün qüvvələri səfərbərliyə almış, pambığın sürətlə və itkisiz toplanması, sahələrdən yığılmış məhsulun lafetlərlə qəbul məntəqəsinə daşınıb təhvil verilməsinə kimi bütün işləri lazımi dəqiqlik və ardıcıllıqla aparırlar. Pambıq yığan qızlar- Seylan Səfərova, İlhamə Novruzova, Gülbəniz Manafova, Hafizə Əliyeva hər gün adam başına 70-80 kq pambıq yığırlar. İcarədar Cavid Vəliyev bu günədək tarlalardan 6 tondan yuxarı, Vəli Ələkbərov isə 5 tondan yuxarı pambıq təhvil vermişlər.

İcarədar Natiq Dostəliyev də bu il bol pambıq yetişdirmişdir. Hər il olduğu kimi bu il də yığımın ilk günlərindən fərqlənərək bu günədək pambıq qəbulu məntəqəsinə 32 tondan çox pambıq təhvil vermişdir.

Ağ qızıl ustalarımız yığımın tempini bir an da olsun azaltmır, min bir əziyyətlə becərib yetişdirdikləri məhsulu son qozasınadək itkisiz təhvil vermək üçün var qüvvə ilə çalışırlar.

Əminik ki, rayonumuzun pambıq istehsalçılarının bu əziyyəti və əzmkarlığı hədər getməyəcək, tezliklə yüksək nəticə ilə dövlətimizi, xalqımızı sevindirəcəklər.

***Nazim Fətixanoğlu***

# HACIQABUL

◆ № 19 (699) 22 oktyabr 2018-ci il


## Müəllim gününə həsr olunmuş konsert proqramı



Şəhər Folklor Klubunda Şəhər Uşaq Musiqi məktəbinin müəllim və şagird kollektivi “Beynəlxalq Müəllimlər Günü” münasibəti ilə tədbir keçirmişdir.Tədbirdə Sabirabad Regioanal Mədəniyyət İdarəsinin rəisi Əhməd Ramazanov və müavini Əziz Abasov iştirak etmişdir.

Tədbiri açan Əhməd Ramazanov müəllim kollektivini təbrik edərək, ürək sözlərini söyləmiş, məktəb rəhbərliyi və müəllimlərə tövsiyyələrini vermişdir.

Məktəbin direktoru Rahib Məmmədov tədbirdə iştirak etdikləri üçün qonaqlara öz təşəkkürünü bildirmiş və müəllim kollektivini təbrik edərək işlərində uğurlar arzulamışdır.

Sonda məktəbin müəllim və şagird kollektivi rəngarəng konsert proqramı ilə çıxış etmişlər.

***M.Fərəcov***

## Əsgər və zabitlər qarşısında çıxış etdilər



Azərbaycan Dövlət Müstəqilliyi günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibəti ilə Hacıqabul rayonunun bir qrup mədəniyyət işçiləri rayonda yerləşən N saylı hərbi hissədə oldular. Hərbi hissədə “Müstəqil Azərbaycanım” adlı böyük konsert proqramı ilə çıxış etdilər. Konsertdə hərbi hissənin əsgər və zabit heyəti iştirak etdilər. Konsert proqramı əsgər və zabitlər tərəfindən alqışlarla qarşılandı. Müğənnilərin ifası onlarda xoş əhval-ruhiyyə yaratdı.

***Mehdiqulu Fərəcov,***
***rayon Mədəniyyət***
***Mərkəzinin direktoru***

## «Təhlükəsiz dövlət naminə: vergiləri ödəyək»

Ölkədə vergi mədəniyyətinin yüksəldilməsi, cəmiyyətdə vergiödəmə vərdişinin formalaşdırılması Vergilər Nazirliyinin fəaliyyətində prioritet istiqamətlərdən birini təşkil edir. Bu sahədə təbliğat, məlumatlandırma və maarifləndirmə işinin gücləndirilməsi məqsədilə nazirliyin təşəbbüsü ilə hazırlanmış sosial reklam çarxlarında vergi ödəyicilərinin dövlət büdcəsinə ödədiyi vergilərin hara və nə üçün xərclənməsi barədə konkret nümunələr əsasında ətraflı məlumat verilir, həmin vəsaitlərin vətəndaşların sosial təminatına, sağlam və təhlükəsiz yaşayışın təşkilinə sərf edilldiyi obrazlı şəkildə ifadə olunur. Bununla dövlət büdcəsinin ödənilən vergilərdən asılı olduğunu, vergiləri ödəməklə cəmiyyətin hər bir üzvünün büdcənin formalaşmasında iştirak etdiyini və ölkəmizin inkişafına töhfə verdiyini vətəndaşların diqqətinə çatdırmaq, hər birimizin üzərinə düşən layiqli vətəndaş ödəmək vəzifəsini icra etməyə inandırmaq nəzərdə tutulur.

Sosial reklam çarxlarının ideya müəllifi «Maxmedia» Reklam Agentliyinin direktoru Zaur Məmmədov «Vergilər» qəzetinə bildirib ki, cəmiyyətimizdə vergi mədəniyyətinin yüksəldilməsi prosesinə hər bir vətəndaş fəal şəkildə qoşulmalıdır. Bu sahədə dövlət büdcəsinin gəlirlər hissəsini formalaşdıran qurumların və büdcədən maliyyələşən təşkilatların apardığı maarifləndirmə və təbliğat işinin də rolu çox əhəmiyyətlidir. Vergi mədəniyyəti vergi sisteminin inkişaf göstəricisidir və onun formalaşmasının əsas elementlərindən biri cəmiyyətdə vergiləri könüllü ödəmək vərdişinin yaradılmasıdır: «Sosial reklam çarxlarının hazırlanmasında əsas hədəflərdən biri də ölkədə vergi mədəniyyətinin formalaşdırılmasına, vergi ödəyicilərinin və bütövlükdə cəmiyyətin maarifləndirilməsinə nail olmaq, büdcə gəlirlərinin vergi yolu ilə daha da artırılmasının əhəmiyyətini diqqətə çatdırmaqdır. Müxtəlif peşə sahiblərinin cəmiyyətdəki rolunu əks etdirən sosial reklam çarxlarının süjetləri həyatda baş verən real hadisələr əsasında qurulub və həkim, polis zabiti, müəllim, yanğınsöndürənlərin fədakar əməyinə həsr olunub. Bu məqsədlə «təhlükəsiz, sağlam, qayğıkeş və savadlı dövlət naminə» kimi əsas çağırışlardan istifadə edilib».

Z.Məmmədovun sözlərinə görə, bu cür təbliğat kampaniyalarının dövlət qurumları arasında əməkdaşlıq çərçivəsində aparılması görülən işlərin effektivliyini və səmərəliliyini daha da yüksəldə bilər: «Bu sosial reklamlarda ictimaiyyətə mesaj çatdırılır ki, əməkhaqqı, pensiya, təqaüd və müavinətlərin verilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, aztəminatlı ailələrə dövlət qayğısının, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi, föv-qəladə halların nəticələrinin aradan qaldırılması, ölkəmizin müdafiə qüdrətinin və ordumuzun daha da gücləndirilməsi kimi mühüm tədbirlər məhz vətəndaşların ödədiyi vergilərdən, dövlət büdcəsində toplanan vəsaitlərdən asılıdır. Bizim hazırladığımız sosial reklam çarxları bu taleyüklü məsələlərin son dərəcə vacib və əhəmiyyətli olduğunu bir daha cəmiyyətin diqqətinə çatdırır».

Sosial çarxların rejissorları - Vüsal Həsən və Ceyhun İbrahimoğlu süjetlərin real hadisələrə əsaslandığını və çəkilişlərdə peşəkar aktyorlarla yanaşı, konkret peşə sahiblərinin də iştirak etdiyini bildiriblər. Qeyd olunub ki, sosial reklam çarxları «Maxmedia» Reklam Agentliyi və «Gala Media Group» şirkəti tərəfindən hazırlanıb. Çəkilişlər Bakı şəhəri, Abşeron və Şabran rayonlarının ərazisində aparılıb. V.Həsənin sözlərinə görə, «Təhlükəsiz dövlət naminə: vergiləri ödəyək» devizi altında çəkilmiş ilk reklam çarxı yanğınsöndürənlərin peşə fəaliyyətinin əhəmiyyətindən, onların vətəndaşların təhlükəsizliyi naminə göstərdiyi fədakarlıqlardan bəhs edir. Daxili İşlər Nazirliyi, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi, Binəqədi, Nəsimi və Xəzər rayon dövlət yol polisi şöbələri, Abşeron Rayon Dövlət Yanğından Mühafizə Hissəsi və 1 saylı Kliniki Tibbi Mərkəzin texniki dəstək verdiyi və bu qurumların əməkdaşlarının bilavasitə iştirak etdiyi bir neçə reklam çarxının çəkilişləri başa çatdırılıb və yaxın vaxtlarda onların da yayımlanması nəzərdə tutulur.

***5 saylı Ərazi Vergilər İdarəsi***

## Vətəndaşların nəzərinə!

***1 oktyabr 2018-ci il tarixindən etibarən Hacıqabul rayon Mərkəzi kitabxanasında uşaqlarda əməyə məhəbbət hisslərinin kiçik yaşlarından tərbiyə olunması, əqli və fiziki qabiliyyətlərin inkişaf etdirilməsi, mütaliəyə marağın artırılması istiqamətində rəqs, toxuculuq və bədii qiraət dərnəkləri fəaliyyətə başlamışdır. Həmin dərnəklərdə qüsurlu uşaqların məşğul olması üçün də şərait yaradılmışdır.***

## 01.11.2018-cı il tarixinədək Hacıqabul rayon Heydər Əliyev Mərkəzində aşağıda adları qeyd olunan kurslara qəbul elan edilir

1.İngilis, rus dili kursları (Müddəti 1 ildir)
2.Ailədə İlkin Tibbi Yardım kursu (Müddəti 1 ildir)
3.Kompyuter kursu (Müddəti 6 aydır. Kursda keçirilən proqramlar: Windows, Mikrosoft Word, Mikrosoft Excel, Mikrosoft Power Point)
4.Gənc texnoloqlar dərnəyi (Müddəti 6 aydır)
5.İbtidai siniflər üçün məşğələ (bütün fənnlər üzrə)
6.Rəsm dərnəyi (6 ay)
7.Fortepiano (yaş həddi yoxdur)
8.Xalça dərnəyi (6 ay)
9.Kulinariya və süfrə mədəniyyəti (Müddəti 6 ay)
10.Toxuculuq (6 ay)

Dərslər 01.11.2018-cı il tarixindən başlanır. Kursu bitirənlər Sertifikat və Vəsiqə ilə təmin olunacaq.

**Ünvan: Hacıqabul rayon**
**Heydər Əliyev Mərkəzi**
**tel:(2120)4-49-95.**

## Elan

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 11 aprel 2006-cı il tarixli qərarı ilə Navahı kənd sakini Mustafayev Əlisəfa Mahmud oğlunun adına verilmiş JN-0480, kodu 91006005 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Rəncbər kənd sakini Şiraliyev Şirali Şirməmməd oğlunun adına verilmiş JN-0066, kodu 91007018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet “Hacıqabul” qəzetinin kompyuter mərkəzində yığılmışdır, “Son Dakika” çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200